BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Humanitar elmlər seriyası 2013*

**UOT 94(3)**

# YUNAN MƏSKƏNLƏRİ VƏ RİZƏ QIZ QALASI

**A.Ə.MEHDİYEVA**
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***ayten-69@mail.ru***

*Qədim zamanlardan müxtəlif tarixi abidələrlə zəngin olan Türkiyə ərazisində yerləşən Rizənin Pazar mərkəzindəki Qız qalası xüsusilə fərqlənir. Quru ilə tədricən əlaqəni itirən kiçik bir yarımadada inşa olunan bu qala qədim ilahələrə həsr edilmişdir. Lakin ideologiyalar və dinlərin dəyişməsi Qız qalasının xarakteri və mahiyyətinin bütünlüklə dəyişməsinə səbəb olmuşdur.*

**Açar sözlər:** Milet, Delfa orakulu, yunan məskənləri, Qara dəniz sahilləri, Qız qalası, Batum

Qədim "yunan möcüzəsi" hesab olunan Böyük yunan kolonizasiyası (e.ə. VIII-VI əsrlər) yunanlar və digər xalqların tarixində mühüm rol oynamışdı. Bu prosesdə yunanlar Egey dənizi hövzəsindən başlayaraq Aralıq və Qara dəniz sahillərində ümumi əhalisi 1,5-2 milyon nəfər olan yüzlərlə koloniyanın (apoykiya) əsasını qoymuşdular. Bir neçə istiqamətdə aparılan məskunlaşma prosesində şimal-şərq istiqamətində baş verən hadisələr, xüsusilə fərqlənmişdi. Bu zaman varlı yunan şəhəri Milet aparıcı rol oynamışdı. Milet məskunlaşma prosesində 80 [1, 77], 90 [2, 42] və hətta 100-dən artıq [3, 96-97] məntəqə və koloniyanın əsasını qoymuşdu. Miletin kolonizasiya prosesində fəal iştirakı onunla izah edilir ki, bu prosesdə iştirak edənlərin tərkibində yalnız Milet vətəndaşları deyil, həmçinin Milet koloniyalarının əsasının qoyulmasını özləri üçün əlverişli sayan digər yunan şəhərlərinin əhalisi də iştirak edirdi [3, 99]. Bir çox Qara dəniz sahili şəhərlərinin Miletin koloniyası olması iqtisadiyyat, siyasi quruluş, sosial struktur və mədəniyyətdə oxşar cəhətləri formalaşdırmışdı. Bu prosesi doğuran səbəbləri araşdıran ingilis tədqiqatçısı Obri Qvinn antik müəllif Fukididin (I,10,2) məlumatına əsaslanaraq göstərirdi ki, ilk ioniyalı kolonistlər Miletdən çıxdıqları zaman Yunanıstanda hələ şəhərlər yox idi, əhalinin əksəriyyəti kəndlərdə yaşayırdı, ölkənin iqtisadi həyatında ticarət və sənətkarlıq aparıcı rola malik deyildi. E.ə.VIII əsrdə salınan koloniyaların tarixini öyrənən müəllifə görə, məhz erkən koloniyalar və onların metropoliyaları arasında ticarət əlaqələri sonrakı ticarət əlaqələrinin yaranmasına səbəb

olmuşdu. Fikrini sübut etmək üçün o, Milet və Sinop arasında münasibətlərə müraciət etmişdi. Belə ki, koloniyanın əsasının qoyulduğu zaman Milet ticarət mərkəzi kimi yenicə formalaşmağa başlayırdı [4, 12]. Dövrünün gözəl şəhərlərindən olan Sinopun əsasını qoyan miletli dənizçilər bu şəhərdə tamamilə möhkəmləndikdən sonra Qara dənizin müxtəlif sahillərini mənimsəmək üçün buraya kolonistlər göndərməyə başladılar [5, 3]. Bu yolla öz koloniyaları ilə təmasda olan Sinop və onun formalaşdırdığı sistemə qoşulan Amis qədim dövrdə yaxşı tanınan, müxtəlif metallarla zəngin olan rayonları mənimsəyir və Qara dəniz bazarlarına müxtəlif məhsullar ixrac edirdi. İri istehsal və tranzit ticarət mərkəzləri kimi bu şəhərlər Şərqi Aralıq dənizi sahili dövlətlər, Ön Asiya, Misir, Kiçik Asiya, Cənubi Qafqaz, Egey dənizi adaları, Balkan yarımadası və Pont ölkələri ilə əlaqə saxlayırdı.

Bu proseslərdə yenilikləri müsbət qarşılayan, təşəbbüskarlığı baxımından fərqlənən İoniya sivilizasiyasının Şərqlə Avropa arasında aralıq mövqe tutması müxtəlif tikililərdə, şəhər planlarında, hətta dini-mənəvi dəyərlərdə öz əksini tapmışdı. Bunu əsas götürən R.Y.Vipper göstərirdi ki, kolonizasiya prosesi olmasaydı, Yunanıstan tarixi olmazdı [4, 3]. E.ə.V-IV əsrlərdə Qara dəniz sahili polisləri Egey mərkəzləri olan Milet, Afina və Samosun nüfuz dairəsinə daxil idi [6, 3]. Digər yunanlara nisbətən Şərqə yaxın olan ioniyalılar coğrafi biliklərə əsaslanaraq Qərbi Avropadan çıxan ilk məskunlara çevrildilər. Xarici oxşarlığa əsaslanan, yunan memarlığında daha çox təkrarlanan Şərq təsiri Herodotun bu təsirə öz heyranlığını bildirməsinə səbəb olmuşdu [7, 78-79].

Yunan şəhər-dövlətləri koloniyaların yerini müəyyən edərkən dövrünün böyük nüfuz sahibi Delfada yerləşən Apollon orakuluna müraciət edirdi. Xəritədə yunan məskənlərinin yerləşmə qanunauyğunluqlarına diqqət yetirdikdə, Delfa orakullarının bilik və zəkasının yüksək səviyyədə olması barədə təsəvvür yaranır: bu proses olduqca planauyğun və hərtərəfli düşünülmüş şəkildə aparılmışdı [2, 39].

Antik dövrdə gələcəyi görmə formalarından biri kahin-orakulun allahın adından xəbər verməsi sayılırdı. Geniş mənada xəbərin verildiyi yer və ya mətnin özü də orakul kimi qəbul edilə bilərdi. Delfa pifiyası istisna olmaqla, qədim orakullar kişilərdən seçilirdi. Orakullar Yunanıstana Qədim Şərq ölkələrindən gəlmişdilər. Onlardan ən qədimi Meroe (Misir) orakulu hesab olunurdu. Meroedən sonra Fiv (Misir) və Ammonlu Zevsin (Liviya) orakulu gəlirdi [8]. Yunanıstanda Dodon, Delfa orakulları böyük nüfuz sahibi sayılırdı. Herodota görə, Elladanın ən qədim orakulu Dodon şəhərində (Epir) olmuşdu (I 46; II 52, 55, 57) [9, 27, 128-129]. Güman ki, o, yunanlar Elladaya gələnə qədər yaranmışdı. Yunanlar onu Torpaq ilahəsi Geya ilə bağlamışdılar. Ən qədim orakullar xtonik ibadətlə bağlı idi. Elida, Piza və Kritdə Zevs orakulları, Kolofon yaxınlığında və Delosda Apollon orakulları fəaliyyət göstərirdilər. Yunan allahları arasında Şərq panteonundan götürülən allahların özünəməxsus yeri olmuşdur. Bunlardan Afrodita və Apollonu xüsusi qeyd etmək lazımdır [10, 106]. Miletdə yerləşən Branxid orakulu həm Apollon, həm də Artemida ilə bağlı idi. Orakula

sivillalara (xüsusilə Eritreya və İtaliyada Kumey) aid kəlamlar da daxil idi. Ellinizm dövründə yunan dünyasının sərhədlərində yerləşən sivillalar orakullarla rəqabət aparırdılar [11].

Qeyd etdiyimiz kimi, Böyük yunan kolonizasiyası dövründə yunanların fəal xarici siyasəti mədəni əlaqələr və dini təsəvvürlərin yerli inamlar əsasında genişlənməsinə və yeni allahların yaranmasına səbəb olurdu. Çoxsaylı şəhər-dövlətlərə parçalanan Yunanıstanda vahid panteonun olmaması, hər bir polisin öz mifləri və allahlar iyerarxiyasının olması ilə yunan mifoloji sistemi mürəkkəb xarakter alırdı. Eyni zamanda şəhərlərin Delfa, Delos və b. dini mərkəzlərlə siyasi ittifaqı vahid allahlar panteonunun yaranması, oxşar mifoloji süjetlərin formalaşması və s. şərait yaradırdı. Belə dini-mifoloji qaydaların əsas götürüldüyü Yunanıstanda Zevsin iradəsini insanlara çatdıran Apollonun adı ilə bağlı çoxsaylı orakullar var idi. Onların arasında xüsusi fərqlənən Delfada yerləşən Apollon orakulu ilə Oykumenanın hər yerindən gələn insanlar məsləhətləşirdilər.

Antik dövrdə çox tanınan orakul dünyanın omfalı (mərkəzi) hesab olunan Delfada yerləşirdi. Burada işıq (günəş) allahı Apollon ilan Pifona qalib gələrək özünün orakulunu yerləşdirmişdi. Orakulların qeyri-adiliyi onların qapı kimi qəbul olunmasında idi [11]. Pifiya adlanan kahinələr məbədin yerləşdiyi ərazidən çıxan qazlarla nəfəs alaraq trans vəziyyətinə düşdükdə onun dedikləri əsasında qoyulan problemin mümkün həlli yolları barədə "məlumat verilirdi". Bu hadisələrin həqiqətə uyğunluğu haqqında birmənalı nəticə çıxarmaq çətinlik yaradır. Belə ki, orakulların mühakimələrinin arxasında kifayət qədər real hadisələr dayanırdı. Onlar yalnız gələcəyi "açmır", müdrik nəticələr çıxara bilmədikləri zaman allahların adından insanları idarə edirdilər. Hakimiyyət nümayəndələri dövlət işlərini idarə edə bilmədikdə orakulların xidmətindən istifadə edirdilər. Ona görə yunan tarixində orakullar siyasi institutlar kimi fəaliyyət göstərirdilər.

Böyük yunan kolonizasiyası dövründə yunanlarda mədəni əlaqələrin və dini təsəvvürlərin genişlənməsi ilə yanaşı ümumi allahların yaranması baş verirdi [10, 106-107]. Buna baxmayaraq, yunan mifoloji-dini sistemi Qədim Yunanıstanda vahid panteonun olmaması, hər bir şəhər-dövlətin öz mif və allahlar sistemini yaratması vəziyyəti daha da gərginləşdirirdi. Yalnız şəhərlərin dini-ibadət mərkəzləri ilə (Delfa, Delos və b.) siyasi ittifaqları vəziyyəti dəyişirdi. Mühüm işlərə başlamazdan əvvəl yunan şəhər-dövlətləri başçıları və çarların məsləhətləşdikləri orakullar siyasi baxımdan pərakəndə halda yaşayan yunanlarda milli birlik şüurunun qorunub saxlanılması və ümumyunan tədbirlərinin keçirilməsində mühüm rol oynayır, kənd təsərrüfatını himayə edir, yeni torpaqların tutulmasına rəhbərlik edirdilər. Bu mürəkkəb sistem Yunanıstan və onun koloniyalarında özünəməxsus kahinlər sisteminin yaranmasına səbəb oldu. Yunanlar allahlar aləmi ilə insanlar arasında əlaqə yaradan, ibadət edən, qurbanvermə və digər adətləri həyata keçirənləri kahin adlandırırdılar. Lakin Yunanıstanda kahinlər, Şərq ölkələrindəki kimi, ayrıca bir təbəqə kimi forma-

laşmadı. Cəmiyyətdə kahinlərə hörmətlə yanaşılır, onların müəyyən cins, yaş, mənşəyi və yüksək mənəvi keyfiyyətlərin daşıyıcısı olması, müəyyən hərəkətlərdən çəkinməsi tələb edilsə də, kahinlik ömürlük deyildi, xüsusi hazırlıq tələb etmirdi, qeyri-adi biliklərə sahiblik vacib sayılmırdı [8, 219]. Kahinlər ibadətlə bağlı məsələlərdən baş çıxarmalı idi. Bu isə adi vətəndaşların da kahin vəzifəsini yerinə yetirməsinə şərait yaradırdı.

Belə dəyərlərin daşıyıcıları olan yunanlar artıq e.ə. II minilliyin sonundan Qafqazın Qara dəniz sahillərinə müxtəlif xarakterli səfərlər təşkil edirdilər. “Prometey” və “Arqonavtlar” adlı qədim yunan əsatirlərində e.ə. II minilliyin sonu- I minilliyin əvvəlində Qafqazın Qara dəniz sahillərində yerləşən ölkələrin yunanlarla əlaqələri haqqında kifayət qədər məlumatlara rast gəlinir [12, 80]. Bu prosesdə fərqlənən miletlilər e.ə. VIII əsrdə Atina (Pazar) yeri adı verilən ərazinin mövqeyini yüksək qiymətləndirərək, Qafqazın Qara dəniz sahillərində fəaliyyətlərini davam etdirmək məqsədilə onu mərkəz koloniyası şəklinə salmış [13] və e.ə.VI əsrdə Fasis (Poti) və Dioskuria (Suxumi) koloniyalarının əsasını qoymuşdular.

Müasir dövrdə Türkiyə dövlətinin ərazisinə daxil olan bu torpaqlarda müxtəlif xalqlar yaşamış və burada çoxsaylı abidələr yaratmışdılar. Həmin abidələrin bəzisi zamanın sınağına tab gətirmiş və dövrümüzə gəlib çatmışdır. Bu abidələr arasında Qara dəniz sahillərində yerləşən Pazar ilçə ( inzibati bölgü) mərkəzindəki Rizə Qız qalasının özünəməxsus yeri vardır. Rizə Qız qalasının xarakterik cəhətlərindən biri onun dənizin içində, quru ilə əlaqəsi olmayan qaya parçası üzərində inşa edilməsidir.

Qız qalalarının coğrafi mövqeyinə əsasən qruplaşdırılması aparılarkən onların bir qisminin dəniz və göllərdə, çay ətrafında inşa edilməsi faktı ilə üzləşirik. Bu tip Qız qalalarına İstanbul boğazları, Beyşehir gölü, Çandarlı, Silifkə yaxınlığı, Ceyhun çayı sahili və Rizənin Pazar ilçə mərkəzində rast gəlinir [14, 962]. T.Baykara bununla əlaqədar olaraq Qız və xatun adları ilə bağlı olan və dünyanın bir sıra yerlərində rastlanan adaların adını çəkir. Bunlardan Apolyont gölündə ( Bursa) və Budapeştdə Tuna üzərində Qız qalaları, İzmir gölündə Xatun adası və s. göstərmək olar (14, 964). Azərbaycanda da xatun-xatın adı ilə bağlı yer adları çoxdur: Xatunbəyli (Ağdərə), Xatıncan (Tovuz), Xatınbulaq (Füzuli) və b. Xatun sözü kat – un sözlərinin birləşməsindən yaranmışdır. “Un” qədim və müasir türk dillərində sifət düzəldən şəkilçidir. Kat-katta sözü isə, güman ki, tarixən odla bağlı olub, “od yiyəsi”, “ocaq sahibi” məzmununu bildirirdi [15, 134]. Tədqiqatçı Y.M.Murzayev xatın sözünün qədim türk dilində “çay” mənasını daşıdığını, sonrakı dövrdə isə bu mənanın unudulduğunu göstərmişdi [16, 190-192]. Beləliklə, xatun sözü Mahmud Kaşğarinin göstərdiyi kimi, “xan arvadı” mənasını daşımazdan əvvəl “od yiyəsi”, “ocaq sahibi” və “göl, çay” mənasını bildirən bu söz “hökmdara məxsus”,“hökmdara xas” kimi mənalarda işlənmiş və tədricən qadınlıq məzmunu kəsb etmişdi. Bu da qədim dünyagörüşünə əsaslanırdı. Belə qız və qadın adları ilə bağlı abidələrə müxtəlif qədim və müasir şəhərlərin ətrafında rast gəlinir.

Məhz bu qədim ideyaların daşıyıcısı olan Qız qalasından fərqli olaraq, Rizə ərazisindəki qalaların əksəriyyəti müdafiə xarakteri daşıyan tikililərdir. Onlardan Rizə qalası böyük əhəmiyyətə malik olmuşdu. İnşa tarixi dəqiq bilinməyən bu qala VI əsrdə yenilənmiş, XIII əsrdə Trabzon dövləti dövründə son şəklini almışdır. İç qala və əhalinin yaşadığı hissə olmaqla 2 hissəyə ayrılan bu qalaya bənzər tikililər Şərqi Qara dəniz hövzəsində Trabzon və Giresun qalalarıdır [17]. Rizənin sərhədlərində inşa olunan qalalar strateji nöqtələrdə yerləşdirilmişdi. Bu qalalar ərazini qorumaq, əlaqə saxlamaq, kifayət qədər əsgəri qüvvələri yerləşdirmək üçün inşa edilmişdi. Onlardan Bozuk qala və Pazar ilçəsi Yücəhisar kəndindəki Cihr qala nisbətən kiçik ölçülü olub, gözətçi qüllələrinə malik idi. Pazar ilçəsində kiçik bir ada üzərində qurulan Qız qalası bu qalalardan qülləsinin olmaması ilə fərqlənmişdi.

Qız qalası Pazar (Atina) ilçə mərkəzinin qərbində kiçik bir yarımada üzərində qurulmuşdur. Qayalıq əsası üzərində qurulan bu qalanın quru ilə əlaqəsi kəsilmişdir. Təxminən 7x7 metr həcmində olan bu qalanın qapısı qərbə tərəf açılır. Qalanın cənub divarları yıxılmışdır. Uçmamış divarlarda mağzal pəncərələri və yuvarlaq kəmərli üst qat pəncərələri qalmaqdadır. Qalanın inşa tarixinin araşdırılması bu ərazinin coğrafi mövqeyi, tarixi inkişafı və s. kimi faktorların araşdırılması zərurətini ortaya çıxarmışdı. Bu regionun özünəməxsus coğrafi şəraiti burada salınan yunan şəhərlərinin inkişafına ciddi təsir göstərmişdi.

Hələ antik müəllifi Flavi Arian (95-175) bu ərazinin Atina adlandırılması, yunan ilahəsi məbədinin burada yerləşməsi nəticəsində onun Atina adlandırılmasını bildirmişdi. Müəllif öz dövründə Atinada yerləşən qalanın əhəmiyyəti məsələsinə də toxunmuş, qalanın müdafiə məqsədi daşımadığını, yalnız gəmilərin küləkdən qorunduğu bir məkan olmasını göstərmişdi [12]. Türk müəllifi Kemal Karadənizli isə Atinanı qədim mədəniyyət mərkəzi Petra ilə əlaqələndirmişdi [12].

Bizans və Trabzon imperiyalarının tərkibində olan Atina müxtəlif Qafqaz xalqlarının lazlar-mergellər, abxazlar və gürcülərin hücumlarına məruz qalmış, 1461-ci ildə Osmanlı imperiyasının torpaqlarına çevrilmişdi. 1854-cü ildən bələdiyyəyə çevrilən Atina 1864-1877-ci illərdə Batum sancağına bağlı tək ilçə olmuşdu. 1877-ci il Osmanlı-Rusiya müharibəsindən sonra Batum ruslara keçmiş, bu ərazilər isə ayrılaraq əvvəl Goruh, daha sonra Rizə ilinə verilmişdi. 1915-ci ildə Rusiya imperiyası tərəfindən tutulan bu torpaqlar 1918-ci ilin martında yenidən türklərə qaytarılmışdı. 1928-ci ildə ilçənin Atina adı rəsmi olaraq Pazarla əvəzlənmişdi [12].

Beləliklə, Atina (Pazar) adlı yerdə Qız qalası kimi bir abidənin mövcudluğu yunan kolonizasiyası prosesində yunanların miqrasiya etdikləri ərazilərə yalnız iqtisadi, siyasi, sosial deyil, həmçinin mifoloji və dini inamlarını gətirməsi ilə bağlı idi. Dini ritualların həyata keçirilməsində çətinliklərin yaradılması, yeni məskənsalma prosesində yunanların öz şəhərlərində üstünlük təşkil edən dini inamlarını və müvafiq ibadətlərini ön plana keçirməsi, yunan kolonizasiyası prosesinə Delfa orakulunun rəhbərlik etməsi Afina, Apollon,

Artemida və s. allah və ilahələrə səcdəgah və məbədlərin yaradılması zərurətini ortaya çıxarırdı. Yerləşdiyi ərazinin belə yunan ilahəsinin adını daşıdığı bu qala qədim inamlara əsasən toxunulmazlıq simvolu kimi adi insanların toxuna bilmədiyi yerdə - dənizdə inşa edilməli idi. Bu baxımdan yanaşdıqda Afina ilahəsinin şərəfinə inşa olunan qalanın coğrafi mövqeyi və yerləşdiyi ərazi bu tələblərə tamamilə cavab verirdi.

Antik sivilizasiya arxa plana keçdikdən, 393-cü ildə Roma imperatoru Feodosi tərəfindən Delfa orakulu və b. bütpərəst məbədlər bağlandıqdan, sonrakı dövrlərdə Türkiyə ərazisində türk-islam mədəniyyətinin daşıyıcıları hakim mövqe tutduqdan sonra yunan ilahələrinə həsr olunan abidələrin adı dəyişilmiş, hətta onların adlarından ilahələrin adı götürülərək yalnız Qız qalası kimi dövrümüzə gəlib çatmışdı. Lakin insanlar öz dinini dəyişsələr də, tarixi faktlar müxtəlif formalarda qalmışdı. Bu baxımdan Rizə Qız qalası istisna deyil. Qeyd olunan ərazilərin vaxtilə daxil olduğu Batum şəhəri salınmamışdan uzun illər əvvəl Qız qalasının mövcud olması faktı xalqın yaddaşında ilişib qalmışdı. Sonralar bu qala mərkəz olmaqla onun ətrafında yaşayış məskənləri (kənd, qəsəbə) salınmış, sonda onlar böyüyərək Batum şəhərinə çevrilsə də, XIX əsrdə hələ də Batum şəhəri əhali arasında "Qız qalası" kimi tanınırdı [18, 61].

## ƏDƏBİYYAT


1. Норман Дэвис. История Европы. М.:АСТ: Транзиткнига, 2005, 943 с.
2. Куманецкий Казимеж. История культуры древней Греции и Рима. Пер. с польского В.К.Ронина. М.: Высшая школа, 1990, 351 с.
3. История древней Греции. Под ред.В.И.Кузищина. М.: Высшая школа, 2001, 399 с.
4. Яйленко В.П.Греческая колонизация VII-III вв. до н.э. М.: Наука, 1982, 312 с.
5. Максимова М.И. Античные города юго-восточного Причерноморья. Синопа. Амис. Трапезунт. М.-Л.: АН СССР, 1956, 472 с.
6. Кузищин В.И. История Древней Греции. Учебное пособие для студ. высш. учеб. заведений. М., Изд-ский центр «Академия», 2006, 480 с.
7. Мансуелли Гвидо. Цивилизации древней Европы/ Гвидо Мансуелли в соавторстве в Раймоном Блоком. Екатеринбург: У-Фактория, 2007, 560 с.
8. http: // prophecies.ru/oracle.html
9. Геродот. История. Пер. и примеч. Г.А.Стратановского. М., АСТ, Хранитель, 2006, 672 стр.
10. Гуленков К.Л., Новиков С.В., Селиванова Н.Л., Стрелков А.В. Древняя Греция: Путеводитель по истории. М.: Эксмо, 2003, 576 с.
11. http:// ru.wikipedia.org/wiki
12. Əliyev Q.Ə. Qafqaz tarixi (ən qədim zamanlardan XVIII əsrin sonunadək). I hissə: Ali məktəblər üçün dərslik. Bakı: Elm, 2009, 448 s.
13. http:// www. addk.org
14. Baykara Tuncer. Bir türk gerçeği: Kızkulesi. Ankara, Türk Tarih Kurumu Basımevi, 1981, 969 s.
15. Məlikov İ.S. Qədim xett və Azərbaycan dil uyğunluqları. Azərbaycan filologiyası məsələləri. Bakı: Elm, 1983, s. 128-136
16. Мурзаев Е.М. Очерки топонимики. М.: Мысль, 1974, 382 с.
17. http: //www. rizekulturizm.gov.tr
18. Mehdiyeva A.Ə. Ə.Cavadın taleyində üç Qız qalası // «Ulduz» jurnalı. Ədəbiyyat və sənət dərgisi, 1992, № 5-6, s.60-61

## ГРЕЧЕСКИЕ КОЛОНИИ И ДЕВИЧЬЯ БАШНЯ В РИЗЕ

**А.А.МЕХТИЕВА**

## РЕЗЮМЕ

Среди башен, находящихся на территории Турции, которая ещё с древнейших времён богата многочисленными культурными памятниками, особенно выделяется Девичья башня, расположенная в центре Пазар в Ризе. Сооружённая на маленьком полуострове, который потерял связь с сушей, эта башня была посвящена древним богиням (Афине, Артемиде и др.). Однако изменение идеологии и религии полностью переменило характер и предназначение этой башни.

**Ключевые слова:** Милет, Дельфийский оракул, греческие колонии, побережье Черного моря, Девичья башня, Батуми

## THE GREEK COLONIES AND MAIDEN TOWER OF RIZE

**A.A.MEHDIYEVA**

## SUMMARY

The Maiden Tower situated in Pazar center of Rize, on the territory of Turkey is rich with numerous cultural monuments. This tower, built on a small peninsula, the connection of which with a land was cut, was devoted to the ancient goddesses (Athena, Artemida and etc.). However changes in the ideology and the religion have completely changed the character and the intent of the Maiden Tower.

**Key words:** Millet, Delphic Oracle, the Greek colony, Black Sea coast, Maiden Tower, Batumi